# *Mövzu 14.*
# *Bank sistemində audit*

<u>*PLAN:*</u>

1. Banklarda auditin mahiyyəti
2. Banklarda auditin məqsədi və vəzifələri
3. Banklarda auditin hüququ.
4. Bank auditinin tənzimlənməsi.
5. Banklarda auditor yoxlamasinin xüsusiyyətləri.

## 1. **<u>Banklarda auditin mahiyyəti</u>**

Bank bazar infrastrukturunun ən vacib və zəruri elementlərindən biri də bank auditini həyata keçirən subyektlərdir. Auditor latın sözündən olub, dinləmək mənasını bildirir.

Auditin qanunvericilik əsasında meydana gəldiyi ölkə Böyük Britaniyadır. İlk dəfə 1862ci ildə ölkədə məcburi audit haqqında qanun qəbul edilmişdir. Bundan sonra digər ölkələrdə 1867ci ildə Fransada, 1937 ci ildə isə ABŞ da audit haqqında qanunlar qəbul olunmuşdur.

Azərbaycan respublikasında auditor xidməti 1990-cı illərin əvvəllərində meydana gəlmişdir. Lakin peşəkar auditor xidmətinin meydana gəlməsi 1994cü ilə təsadüf edir. 1994cü ilin 16 sentyabrında "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.

Müxtəlif ölkələrin qanunvericiliklərinə əsasən auditor xidməti – təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə - təsərrüfat fəaliyyəti sahəsində yoxlama. Ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə uyğun olaraq maliyyə -təsərrüfat münasibətləri sahəsində digər xidmətlər göstərməkdən ibarətdir.

Yoxlanılan iqtisadi subyektin xarakterindən asılı olaraq auditin aşağıdakı növləri mövcuddur:

- bank auditi- bu, ölkədə mövcud olan kredit təşkilatının auditidir;
- sığorta auditi, yəni ölkədə mövcud olan sığorta təşkilatının auditi;
- xüsusi institutların auditi, yəni birjaların, büdcədənkənar fondların və investisiya təsisatlarının auditi;
- ekoloji audit – Bu təbii resurslarının istifadəsi və bərpası üzrə hesabatların düzgün tərtib edilməsi də daxil olmaqla, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərin, ətraf mühitin mühafizəsi normalarının və qaydalarının gözlənilməsi məqsədilə onların təsərrüfat və digər fəaliyyətiin yoxlanılmasıdır;
- ümumi audit, yəni digər iqtisadi subyektlərin auditidir.

## 2. **<u>Banklarda auditin məqsədi və vəzifələri.</u>**

Artıq qeyd edildiyi kimi, auditin mühüm əhəmiyyət kəsb edən, özünəməxsus xüsusiyyətlərə malik növlərindən biri bank auditidir. Kredit təşkilatlarında formasından asılı olmayaraq həyata keçirilən audit aşağıdakı vəzifələri yerinə yetirir:

- kredit təşkilatının maliyyə- təsərrüfat fəaliyyətinin təhlilinin həyata keçirilməsi;
- kredit təşkilatının aktiv və passivlərinin formalaşmasının və quruluşunun təhlili;
- kredit təşkilatının aktiv əməliyyatlarının təhlili;
- vəsaitlərin səmərəli yerləşdirilməsinin yoxlanması baxımından kredit təşkilatının ödəmə qabiliyyətinin, likvidliyin təhlil olunması;
- Kredit təşkilatının maliyyə- təsərrüfat fəaliyyətinin nəticələrinin proqnozlaşdırılması;
- Kredit təşkialtının maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, onun dayanıqlığının və likvidliyinin artırılması üzrə tövsiyələrin hazırlanması;
- Kredit təşkilatında mühasibat uçotunun dəqiq qurulması və onun təkmilləşdirilməsi;
- Kredit təşkilatı əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi;
- Kredit təşkilatının fəaliyyəti ilə bağlı olan maliyyə, vergi, bank qanunvericiliyinin və digər uyğun qanunvericilik aktları barədə məsləhətlərin verilməsi;

1. Auditin aparılması üsuluna görə:

a) məcburi audit; Məcburi audit dedikdə - bu hər il mühasibat uçotunun məcburi auditor yoxlamasının həyata keçirilməsi başa düşülür

b) könüllü audit; Könüllü audit dedikdə qanunun tələblərilə deyil, şirkətin özünün təşəbbüsü ilə həyata keçirilən könüllü audit yoxlaması başa düşülür. Könüllü audit şirkətin fəaliyyətinin müxtəlif istiqamətlərini əhatə edə bilər.

2. Keçirilmə xarakterinə görə;

a) xarici audit; Xarici auditor, şirkətin maliyyə hesabatlarının düzgünlüyünü yoxlayan müstəqil mütəxəssislərdir. Audit prosesinin sonunda auditor, audit olunan şirkətin maliyyə vəziyyətini, maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olması və hesabatların dolğun və dəqiq əks etdirilməsi barədə rəy bildirir.

b) daxili audit; ***Daxili audit – bankın daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə yaradılmış və icra orqanlarından müstəqil olan gəlir gətirməyən xidmətidir.***

3. Keçirilmə dövrliliyinə görə;

a) ilkin audit;

b) təkrar audit;

4. Auditin inkişafı baxımından;

a) təsdiqləyici audit;

b) sistemli müəyyənedici audit;

c) risklə bağlı audit;

**<u>3. Banklarda auditin hüququ.</u>**

Auditorların hüquqları. Sərbəst auditor və auditor təşkilatı aşağıdakı hüquqlara malikdirlər:

- “Auditor xidməti haqqında” qanuna və sifarişci ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq auditin forma və metodlarını sərbəst müəyyənləşdirmək;

- Sifarişçinin maliyyə- təsərrüfat fəaliyyətinə dair bütün sənədlərlə tanış olmaq və yoxlamaq üçün onları almaq, pul məbləğlərinin, qiymətli kağızların, maddi sərvətlərin mövcudluğunu yoxlamaq və audit üçün lazım olan digər məlumatları almaq;
- Sifarişçinin rəhbərliyindən və işçilərindən yazılı izahat almaq;
- Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditor xidməti göstərərkən müəyyən etdikləri pozuntu və nöqsanlar haqqlnda onlar qarşısında məsələ qaldırmaq;
- Auditin keçirilməsinə müqavilə əsasında başqa auditorları cəlb etmək;
- Yoxlanılan təsərrüfat subyekti tərəfindən audit üçün lazım olan sənədlərin təqdim edilməsi audit üçün lazım olan sənədlərin təqdim edilməməsi halında audit yoxlaması keçirməkdən imtina etmək.

Auditorların məsuliyyəti. Auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikasının qanunvericiliyə və sifarişi ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq əmlak məsuliyyətinə cəlb edilə bilərlər.

## 4.Bank auditinin tənzimlənməsi .

Hər bir ölkədə auditin hüquqi tənzimlənməsi normativ sənədlər vasitəsi ilə həyata keçirilir. Azərbaycanda auditor fəaliyyətinin dövlət səviyyəsində həyata keçirilməsi, tənzimlənməsi, onun keyfiyyətinin yaxşılaşdırılması, beynəlxalq təcrübəyə uyğunlaşdırılması, bu sahədə qabaqcıl təcrübənin tətbiq olunması məqsədi ilə aşağıdakı normativ sənədlər, yəni qanunlar, standartlar, qaydalar, əsasnamələr, proqramlar, təlimatlar, işlənib hazırlanmış və hal-hazırda tətbiq edilir.

1. “Auditor xidməti haqqında Azərbaycan Respublikasınnı qanunu”.
2. Auditorlar palatası haqqında Əsasnamə.
3. “Auditin planlaşdırılması” audit standartı.

## 5. Banklarda auditor yoxlamasının xüsusiyyətləri.

Azərbaycan Respublikasında banklarn auditi Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 16 sentyabr 2000ci il tarixli 61\2 saylı qərarı ilə təsdiq etdiyi “Banklarda audit aparılmasına dair proqram” əsasında həyata keçirilir. Bu Proqram 12 bölmədən ibarət olub aşağıdakılardan ibarətdir:

1. Maliyyə hesabatları.
2. Müştərilərə verilmiş kreditlər.
3. Müştəri hesabları.
4. Nağd pul və banklarda yerləşdirilmiş vəsaitlər.
5. Qiymətli kağızlar və investisiyalar.
6. Gözlənilməyən hallar üzrə öhdəliklər.
7. Əsas vəsaitlər
8. Xarici valyuta
9. Sair aktivlər.
10. Sair passivlər.
11. Kapital.
12. Banklardan alınan depozit.

Auditor rəyi kredit təşkilatının mühasibat hesabatının vəziyyətini əks etdirən sənəddir. Onun bütün aspektlərinin ölkə qanunvericiliyinə və normativ aktlara uyğunluq səviyyəsini əks etdirir. Bu rəy bankın illik yekun mühasibat hesabatının auditi əsasında tərtib edilir.